## “IPHONE 17 PRO QAZANIN!” KAMPANİYASININ ŞƏRTLƏRİ

### 1. TERMİNLƏR VƏ ƏSAS ANLAYIŞLAR

**Kampaniya** – Azərbaycan Respublikasının ərazisində keçirilən “iPhone 17 Pro qazanın!” (“Win an iPhone 17 Pro!”) adlı kampaniya.

**Bank** – Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və fəaliyyət göstərən, fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, özünün adından və vəsaiti hesabına kreditlərin verilməsi ilə məşğul olan hüquqi şəxs.

**Kart sahibi** – Bank ilə müvafiq müqavilə bağlamış və Kartdan qanuni əsaslarla istifadə edən fiziki şəxs.

**Sifarişçi** – “Visa International Service Association”, ünvan: ABŞ, CA 94404 – 2775, Foster City, Metro Center Boulevard 900.

**Kart** – Azərbaycan Respublikasının ərazisində Bank tərəfindən emissiya edilmiş və Kart sahibinə təqdim olunmuş Visa Classic, Visa Platinum, Visa Business, Visa Platinum Business, Visa Rewards, Visa Gold, Visa Signature, Visa Signature Business və ya Visa Corporate T&E ödəniş kartı.

**Təşkilatçı** – “VİBEANDVVAVE” MMC, VÖEN-i: 1401810581, ünvanı: Az 1009 Bakı ,şəhəri Yasamal rayonu, Cəfər Cabbarlı , ev 609, mənzil 15, əlaqə vasitələri: (+994) 12 597 56 03; email: office@vibeandwave.az.

**Texniki tərəfdaş** – “INFOCUS” MMC, hüquqi şəxsin identifikasiya kodu: 36563986, qeydiyyat ünvanı: Ukrayna, 01032, Kiyev şəhəri, Sportivna Meydanı 1A.

**Qalib** – bu Şərtlərə uyğun olaraq Hədiyyə almaq hüququ qazanan Kampaniya iştirakçısı.

**Şərtlər** – bu Kampaniyanın hazırkı şərtləri.

**Hədiyyə** – siyahısı Kampaniyanın uduş fondunda təyin olunan və maddi mükafat şəklində Qaliblərə və ya Ehtiyat qaliblərə təqdim olunan uduş.

**Ehtiyat qalib** – Qaliblə eyni zamanda müəyyən edilən və bu Şərtlərdə nəzərdə tutulmuş hallarda Hədiyyəni almaq hüququna malik olan iştirakçı.

**Sayt** – www.visa.az veb-saytı.

**Kampaniyanın keçirilmə müddəti** – 06.07.2026-cı il tarixində saat 00:00:01-dən 30.08.2026-cı il tarixində saat 23:59:59-dək olan dövr.

**Kampaniya iştirakçısı** – Kampaniyada iştirak üçün bu Şərtlərdə nəzərdə tutulan tələbləri yerinə yetirmiş Kart sahibi.

**Çat-bot** – aşağıdakı keçid vasitəsilə əlçatan olan “Visa Concierge” çat-botu: https://cngs.link/VisaConciergeAZ.html.

**Fərdi məlumatlar -** birbaşa və ya dolayı yolla müəyyən edilən Kampaniya İştirakçısına aid hər hansı məlumat, o cümlədən çat-botda qeydiyyata alınmış telefon nömrəsi və Kampaniya çərçivəsində İştirakçıya hesablanmış balların (iştirak hüquqları/şansları) sayı barədə məlumat.

## 2. KAMPANİYADA İŞTİRAK ŞƏRTLƏRİ

**2.1. Kampaniyada iştirak etmək üçün Kart sahibi:**

- 18 yaşına çatmış, etibarlı Kart sahibi olmalıdır;
- Çat-botda qeydiyyatdan keçməli və ya artıq qeydiyyatdan keçmiş olmalıdır;
- Kart məlumatlarını Çat-bota əlavə etməlidir;
- Çat-bot interfeysində "iPhone 17 Pro qazanın!" düyməsini seçməlidir;
- Kartdan istifadə etməklə nağdsız transsərhəd və/və ya xarici elektron ticarət əməliyyatları həyata keçirməlidir;
- Bu Şərtlərlə tanış olmalı, onları qəbul etməli və onlara əməl etməlidir.

2.2. Uduş şanslarının hesablanması qaydası

- Kart vasitəsilə həyata keçirilən beynəlxalq əməliyyatların məbləği cəmlənir;
- əməliyyat məbləği nə qədər çox olarsa, uduş şansı da həmin nisbətdə artır.

2.3. Aşağıdakı əməliyyatlar uduş şanslarının hesablanmasında nəzərə alınmır:

- Kartdan nağd pulun çıxarılması;
- köçürmələr (o cümlədən P2P);
- ölkədaxili əməliyyatlar;
- tütün və alkoqollu məhsulların alışını ehtiva edən əməliyyatlar;
- ləğv edilmiş əməliyyatlar və geri qaytarmalar.

2.4. Həftəlik tirajda iştirak üçün Kart müvafiq həftənin bazar günü saat 23:59-dək Çat-bota əlavə edilməlidir. Əks halda iştirak növbəti tirajdan başlayır.

2.5. İştirakçı istənilən vaxt Kartı Çat-botdan silməklə Kampaniyada iştirakını dayandıra bilər.

2.6. Bu Şərtlər Kart sahibi ilə Təşkilatçı arasında hüquqi münasibətləri tənzimləyən əsas sənəddir. 2.1-ci bənddə göstərilən hərəkətlər yerinə yetirilməklə Şərtlər qəbul edilmiş hesab edilir. İştirakçı bu Qaydaları qəbul etməklə və 2.1-ci bənddə göstərilən hərəkətləri yerinə yetirməklə, Kampaniyanın təşkili və idarə olunması, Qaliblərin müəyyən edilməsi və uyğunluğunun yoxlanılması, Qaliblərlə əlaqə saxlanılması və mükafatlarının təqdim edilməsi məqsədləri üçün zəruri olan həddə öz Şəxsi Məlumatlarının Təşkilatçı, Texniki Tərəfdaş, Bank və Sifarişçi arasında toplanılmasına, emal edilməsinə, istifadəsinə və ötürülməsinə razılıq vermiş hesab edilir.

2.7. Şərtlərin qəbulu könüllü xarakter daşıyır və bu yazılı müqavilənin bağlanmasına bərabər tutulur. Şərtlərin qismən qəbulu mümkün deyil.

## 3. UDUŞUN KEÇİRİLMƏSİ VƏ HƏDİYYƏNİN TƏQDİM EDİLMƏSİ

3.1. Hədiyyələr Kampaniya müddətində həftəlik təqdim olunur.

3.2. Hər həftə 1 Qalib və ən azı 1 Ehtiyat qalib müəyyən edilir.

3.3. Qalibin və ehtiyat qalibin müəyyən edilməsi üçün Təşkilatçı tərəfindən proqram təminatından istifadə edilir. Kampaniya bileti kimi məlumat daşıyıcısı formasında Kart nömrələri əsas götürülür.

3.4. Toplanmış əməliyyatların sayı nəzərə alınmaqla nəticələr siyahı şəklində formalaşdırılır. Həmin siyahıda birinci yeri tutan şəxs Qalib, ikinci yeri tutan şəxs isə Ehtiyat qalib hesab olunur.

3.5. Hər bir həftəlik Qaliblərin və Ehtiyat qaliblərin müəyyən edilməsi müvafiq hesabat dövründən sonrakı həftənin çərşənbə günü həyata keçirilir və bu zaman əməliyyatlar 3 (üç) iş günü ərzində emal olunur.

3.6. Müvafiq oyun həftəsində Kampaniyada iştirak etmək hüququ Şərtləri yerinə yetirmiş və Kartını müəyyən edilmiş müddətdə Çat-bota əlavə etmiş İştirakçılara verilir.

3.7. Bir İştirakçı Kampaniya müddəti ərzində yalnız bir dəfə Qalib kimi tanına bilər. Qalib kimi tanındıqdan sonra belə İştirakçı avtomatik olaraq sonrakı həftələrdə Kampaniyada iştirakdan kənarlaşdırılır. Bu şərt, Hədiyyəni əldə etdikləri halda Ehtiyat qaliblərə də şamil edilir.

3.8. Qalib Çat-bot vasitəsilə və ya Təşkilatçı tərəfindən müəyyən edilən digər üsulla məlumatlandırılır. Qaliblərin məlumatlandırılması məqsədilə Texniki Tərəfdaş İştirakçının çat-botda qeydiyyatdan keçmiş telefon nömrəsini Təşkilatçıya təqdim edə bilər.

3.9. Qalib, bildirişin göndərildiyi andan etibarən 90 (doxsan) iş günü ərzində Hədiyyəni əldə etmək üçün zəruri məlumatları, o cümlədən tələb olunarsa əməliyyatlarla bağlı qəbzləri Təşkilatçıya Şərtlərdə qeyd olunan əlaqə vasitələri ilə təqdim etməlidir.

3.10. Qalib bu hallarda Hədiyyəni əldə etmək hüququnu itirir və bu hallarda Təşkilatçı İştirakçının qalib statusunu ləğv etmək hüququna malikdir:
3.10.1. bildiriş göndərildiyi andan etibarən qeyd olunan müddət ərzində əlaqəyə çıxmadıqda;
3.10.2. hədiyyəni qəbul etməkdən imtina etdikdə və ya müəyyən edilmiş müddətdə tələb olunan məlumatları təqdim etmədikdə;
3.10.3. bu Şərtlərdə və ya qanunvericilikdə nəzərdə tutulmuş digər əsaslar mövcud olduqda.

3.11. Qalib Hədiyyəni əldə etmək hüququnu itirdikdə, Hədiyyəni əldə etmək hüququ Ehtiyat qalibə keçir.

3.12. Qalibin məlumatlandırılması qaydasına uyğun şəkildə Ehtiyat qalib məlumatlandırılır və bildirişin göndərildiyi andan etibarən Qalib üçün tələb olunan müddət və şərtlər əsasında tələbləri yerinə yetirməlidir.

3.13. Hədiyyənin Ehtiyat qalibə təqdim edilməsi mümkün olmadıqda, Təşkilatçı əlavə Ehtiyat qalib müəyyən etmək və ya Hədiyyəni tələb olunmamış (alınmamış) hesab etmək hüququna malikdir.

3.14. Hədiyyə Təşkilatçı tərəfindən Qalibə (və ya Ehtiyat qalibə) təqdim edilir.

3.15. Hədiyyə dəyişdirilmir, geri qaytarılmır və ya pul ekvivalenti ilə əvəz edilmir.

3.16. Hədiyyə Təşkilatçı tərəfindən Hədiyyənin qəbul edilməsi üçün zəruri sənədlərlə müraciət edildiyi tarixdən 30 (otuz) iş günündən gec olmayaraq Qalibə (və ya Ehtiyat qalibə) təqdim edilir.

## 4. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

4.1. İştirakçı təqdim etdiyi məlumatların düzgünlüyünə və Kartdan qanuni əsaslarla istifadəsinə görə məsuliyyət daşıyır.

4.2. Hədiyyənin əldə edilməsi ilə bağlı vergi və digər məcburi ödənişlərin ödənilməsi öhdəliyi, Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmadıqda, Qalibin üzərinə düşür.

4.3. Sifarişçi və Təşkilatçı özlərindən asılı olmayan səbəblərdən Kampaniyada iştirakın mümkün olmaması və ya Hədiyyənin əldə edilə bilməməsinə görə məsuliyyət daşımır.

4.4. Təşkilatçı Qalibin Hədiyyəsinin təşkil və təqdim olunmasına görə məsuliyyət daşıyır.

## 5. UDUŞ FONDU

5.1. Kampaniya çərçivəsində təqdim olunan Hədiyyələr aşağıdakı cədvəldə siyahısı təqdim olunanlardan ibarətdir:

| № | Uduşun adı | Vahid dəyəri (AZN) | Sayı | Ümumi dəyəri (AZN) |
|---|---|---|---|---|
| 1. | Apple iPhone 17 Pro smartfonu, yaddaş həcmi: 256 | 3289 ₼ | 8 | 26312 ₼ |

5.2. Hədiyyənin rəngi Təşkilatçının qərarı ilə müəyyən oluna və dəyişdirilə bilər.

## 6. DİGƏR MÜDDƏALAR

6.1. Təşkilatçı Kampaniya çərçivəsində öhdəliklərin icrası üçün üçüncü şəxsləri cəlb etmək hüququna malikdir.

Təşkilatçı Kampaniyanın keçirilməsi ilə əlaqədar funksiyalarının icrası üçün zəruri olan həddə İştirakçıların Fərdi Məlumatlarının emalı məqsədilə Texniki Tərəfdaş da daxil olmaqla üçüncü şəxsləri cəlb edə bilər.

6.2. Bu Şərtlərlə tənzimlənməyən bütün mübahisəli məsələlər Təşkilatçı və/və ya Sifarişçi tərəfindən həll edilir. Qəbul edilmiş qərarlar, qanunvericilikdə başqa hal nəzərdə tutulmadıqda, yekun hesab olunur.

6.3. Təşkilatçı və Sifarişçi Şərtlərə dəyişiklik etmək, Kampaniyanın keçirilmə müddətini dəyişdirmək və ya onu vaxtından əvvəl dayandırmaq hüququna malikdir.

6.4. Təşkilatçı Kampaniya müddəti ərzində əlavə Hədiyyə müəyyən etmək hüququna malikdir. Kampaniya bitdikdən sonra və ya müvafiq tirajlar keçirildikdən sonra istifadə olunmamış uduşlar Təşkilatçı tərəfindən geri alına bilər.

6.5. Kampaniyada iştirak ödənişsizdir və Kartdan istifadə ilə bağlı xərclər istisna olmaqla əlavə ödəniş tələb edilmir.

6.6. İştirakçıların Fərdi Məlumatlarının toplanması, saxlanılması, istifadəsi, açıqlanması, ötürülməsi və digər formada emalı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq və yalnız Kampaniyanın keçirilməsi və idarə olunması məqsədləri üçün həyata keçirilir. Kampaniyanın məqsədləri üçün Texniki Tərəfdaş İştirakçıların bu məlumatlarını toplaya, emal edə və Təşkilatçıya ötürə bilər: çat-botda qeydiyyatdan keçmiş İştirakçının telefon nömrəsini; Kampaniya çərçivəsində İştirakçıya hesablanmış balların (iştirak hüquqları/şanslar) sayını.

Belə məlumatlar yalnız Kampaniyanın idarə olunması, reytinq siyahılarının hazırlanması, Qaliblərin və Ehtiyat qaliblərin müəyyən edilməsi və yoxlanılması, Qaliblərlə əlaqə saxlanılması, mükafatlarının təqdim edilməsi və qüvvədə olan qanunvericiliyin tələblərinə riayət olunması məqsədləri üçün istifadə edilir.

Təşkilatçı, Texniki Tərəfdaş və Kampaniya ilə əlaqədar cəlb edilmiş səlahiyyətli xidmət təminatçıları Fərdi Məlumatların qorunmasını və onların məxfiliyinin təmin edilməsini qüvvədə olan fərdi məlumatların mühafizəsinə dair qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirmək üçün müvafiq təşkilati və texniki tədbirlər görür.

İştirakçı təsdiq edir və razılaşır ki, onun Fərdi Məlumatları yalnız Kampaniyanın idarə olunması məqsədilə qüvvədə olan fərdi məlumatların mühafizəsinə dair qanunvericiliyin tələblərinə riayət etməklə, Təşkilatçının, Texniki Tərəfdaşın, Bankın və/və ya Sifarişçinin yerləşdiyi ölkələr arasında ötürülə bilər.

6.7. Təşkilatçı saxtakarlıq, manipulyasiya, saxta əməliyyatlar və ya Kampaniyanın məqsədinə zidd hərəkətlər aşkar etdikdə müvafiq iştirakçını Kampaniyadan kənarlaşdırmaq hüququna malikdir.

6.8. Bu Şərtlər 06.07.2026-cı il tarixindən qüvvəyə minir.

6.9. Bu Şərtlərdən irəli gələn mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aidiyyəti məhkəmələrdə həll edilir.

6.10. Bu Şərtlər bir neçə dildə tərtib edildiyi halda, ziddiyyət yarandıqda Azərbaycan dilində olan mətn üstün tutulur.